Azərbaycan Bəstəkarlar İttifaqı

Jalə Qulamova

# Vasif Allahverdiyev
# 60

Bakı – 2023

"RENESSANS-A"

**Jalə Qulamova. Vasif Allahverdiyev.**
Bakı, "Renessans-A" Nəşriyyat Evi, 2023, 40 səh.

**Redaktor:**
**Zemfira Qafarova**
*Əməkdar incəsənət xadimi, professor*

ISBN 978-9952-512-05-2

© Azərbaycan Bəstəkarlar İttifaqı, 2023

# Ön söz

Mədəniyyət geniş anlayışdır. O, bəşər övladının yarandığı vaxtdan bəri yaratdığı və getdikcə təkmilləşdirdiyi maddi, mənəvi, ruhani, ideoloji, bədii-estetik və digər sərvətləri özündə ehtiva edir. Yəni, insanlığı şərtləndirən yaddaş, dünyagörüşü, elm, davranış, ünsiyyət, incəsənət, məişət və s. bu kimi keyfiyyətlər mədəniyyətin komponentlərindəndir.

Musiqini dinləmək, onu daxilən hiss etmək, duymaq, öz fikirlərini musiqi dilinə çevirmək esazkar bir aləmdir. Bu aləmin nümayəndələrindən biri cağdaş Azərbaycan bəstəkarlıq məktəbinin ən layiqli nümayəndələrindən olan, həssas musiqi duyumu, xalqın həyat müşahidələrinə, orijinal yaradıcılıq üslubuna malik bəstəkar, Xalq artisti, professor Vasif Allahverdiyevdir.

Görkəmli bəstəkar İsmayıl Hacıbəyovun yetirməsi Vasif Allahverdiyevin yaradıcılığı daima musiqi

ictimaiyyətinin marağına səbəb olur, geniş dinləyici kütləsinin rəğbətini qazanır. Onun əsərləri özünəməxsus fərdi musiqi dili, peşəkar yazı üslubu ilə fərqlənir. Azərbaycan xalq musiqisini dərindən bilən, müasir bəstəkarlıq texnikasına yaxından bələd olan, daima yeni ifadə üsulları axtaran bəstəkarın hər bir əsəri maraqlı yaradıcılıq ideyalarının bədii təcəssümüdür.

Zəmanəmizin ictimai-siyasi problemlərinə həssaslıqla yanaşan, həyatın müxtəlif təzadlarını fəlsəfi nöqteyi-nəzərdən dərk edən bəstəkarın yaradıcılığının əsas qayəsini yüksək bəşəri ideyaların bədii inikası təşkil edir. Onun əsərlərində doğma Vətənin tərənnümü, böyük müəllimlərinə məhəbbət, xalqın azadlıq mübarizəsi, qəhrəman-şəhidlərin xatirəsi kimi mövzular öz bədii əksini tapmışdır. Bəstəkar əsl peşəkarlıq zirvəsinə çatmağı qarşısına məqsəd qoymuş, çalışqanlığı və tələbkarlığı sayəsində bu yüksək amala nail olmuşdur. Artıq o, milli musiqi mədəniyyətimizin önəmli səhifələrini təşkil edən bir sıra maraqlı əsərlərə imza atmış bir bəstəkar kimi tanınır.

Bəstəkarın yaradıcılığı çoxşaxəlidir. Belə ki, o, musiqinin bir çox janrlarına müraciət etmişdir. Onun yaradıcılıq dəst-xətti simfonik, kamera-instrumental musiqisi, vokal və s. janrlarında özünü büruzə verir. 1992-ci ildə bəstəkar 3 hissəli “Atatürk” simfoniyasını, 1996-cı ildə “Heydər Əliyev - Ömür yolu” simfonik poemasını qələmə almışdır.

O, tar aləti üçün bir sıra əsərlər yazmışdır. 1998-ci ildə qələmə aldığı solo tar üçün "Qarabağ balladası" əsəri bunun bariz nümunəsidir. Müəllimi İsmayıl Hacıbəyova həsr olunan bu əsər 2001-ci ildə disk şəklində buraxılmışdır.

Vasif Allahverdiyevin "Qarabağ balladası" Azərbaycan incəsənət tarixinə daxil olmuş Qarabağ mövzusunu, onun işğalı ilə bağlı faciəli hadisələri musiqidə təcəssüm etdirən bir əsər kimi diqqətəlayiqdir. Eyni zamanda tar üçün yazılmış ilk solo əsərdir. Bu əsərin ifaçılıq xüsusiyyətlərinin araşdırılması çox vacibdir, çünki burada tar ifaçılığında istifadə olunan bədii-ifadəli cəhətlər virtuoz keyfiyyətlərlə uzlaşdırılaraq parlaq bir konsert əsərinin meydana çıxmasına şərait yaratmışdır. "Qarabağ balladası" ifaçılıq baxımından yeni cəhətlərlə zəngindir. Belə ki, müəllif tarın ifaçılıq imkanlarından geniş və rəngarəng surətdə istifadə edərək simlərdən melodik, harmonik və polifonik ifa xüsusiyyətlərini qabarıq nümayiş etdirib. Əsərin muğama əsaslanması onun musiqi məzmununda özünü büruzə verir. Bəstəkar muğamların melodik xüsusiyyətlərinə əsaslanaraq onların intonasiya xüsusiyyətlərini yaratdığı melodiyalarda təcəssüm etdirib. Əsərin əsas məziyyətlərindən biri kimi tar partiyasında iki not sətrindən istifadə edilməsini qeyd etmək lazımdır ki, bu da tar ifaçılığı üçün yeni yazı tərzi kimi diqqətəlayiqdir. Eyni zamanda tarda ifaçılıq baxımından da bir sıra polifonik səsləşmələr, müxtəlif musiqi ibarələrinin

eyni vaxtda təcəssümü, iki not arasında qlissandosu (sürüşdürməsi) və s. cəhətlər özünü göstərir Tədqiqatçı tarzən Afət Novruzov əsərin ifaçılıq xüsusiyyətləri barədə belə yazmışdır: "V.Allahverdiyev tar partiyasının alternativsiz redaktorudur. Çünki hər bir notun üzərində applikatura və ştrixləri, bu zaman hansı ifadə vasitələrindən istifadə edilməsini bəstəkar dəqiq və səlis redaktə etmişdir".

Bu əsər müxtəlif konsert salonlarında, o cümlədən 2011-ci ilin aprel ayında Q.Qarayev adına Beynəlxalq Musiqi Festivalında, 2013-cü il mayın 2-də Ukraynanın paytaxtı Kiyev şəhərində Azərbaycan mədəniyyəti günlərində, Niqeriyada musiqi festivalında tarzən, Əməkdar artist Sahib Paşazadənin ifasında böyük alqışlarla qarşılanmışdır.

Vasif Allahverdiyevin əsərlərində məhəbbət, xoşbəxtlik, sevinc, mübarizə, azadlıq, dostluq, sədaqət, vətənpərvərlik mövzuları öz əksini tapır. 1989-cu ildə piano üçün Prelüdlər, 1990-cı ildə Simli kvartet, 1993-cü ildə piano üçün Variasiyalar (Disk şəklində buraxılıb), 1997-ci ildə İsmayıl Hacıbəyova həsr olunan piano üçün "Sonatina", 1998-ci ildə skripka və piano üçün pyes, 1999-cu ildə piano üçün "Uşaq pyesləri", 2000-ci xalq çalğı alətləri orkestri üçün "Cəngi sədası", 2003-cü ildə dahi bəstəkarımız Üzeyir Hacıbəyliyə ithaf olunan taxta nəfəsli kvartet və zərb alətləri üçün yazılmış "Muğamsayağı" (2009-cu ildə səslənib), 2003-cü ildə Arif Məlikovun 70 illiyinə həsr olunan forte-

piano silsiləsi, 2005-ci ildə Simli orkestr üçün musiqi (Teymur Göyçayevə həsr olunub), 2005-ci ildə 4 səsli qarışıq xor və xalq çalğı alətləri orkestri üçün "Azərbaycan torpağıyam" odası (sözləri Zəlimxan Yaquba məxsusdur), 2006-cı ildə Heydər Əliyevə həsr olunan səs və kamera orkestri üçün "Sənsizlik" elegiyası (sözləri M.Heydərqızına aiddir), 2015-ci ildə piano üçün "Gənclik" süitası (qızı Türkan Allahverdiyevaya həsr olunub), 2020-ci ildə solist, 4 səsli qarışıq xor və böyük simfonik orkestr üçün "Vətən torpağı" odası, marşlar və s. yazdığı əsərlər buna parlaq misaldır.

Vasif Allahverdiyev yaradıcılığında vokal musiqiyə də geniş yer verir. Onun səs və kamera orkestri üçün "Sənsizlik" elegiyası", "Bəlkə görüşdük", "Azərbaycan", "Hara gedirsən", "O yollar" (M.Heydərqızı) və s. vokal əsərləri dediklərimizə bariz nümunədir. Bəstəkar bir çox xalq mahnılarını da səs və kamera orkestri üçün işləmişdir.

Vasif Allahverdiyev yazdığı bütün əsərlərində milli ənənələrlə müasir ifadə vasitələrini üzvi surətdə birləşdirmişdir. Bəstəkarın yaradıcılığında milli köklərə, milli qaynaqlara bağlılıq özünü parlaq şəkildə büruzə verir. Bu da bəstəkarın milli musiqini sevməsi və ona bağlı olmasından irəli gəlir.

Vasif Allahverdiyev 1963-cü ildə Naxçıvan şəhərində anadan olmuşdur. O, 1971-79-cu illərdə Sumqayıt şəhər 14 saylı orta məktəbdə təhsil almış, eyni zamanda paralel olaraq Sumqayıt şəhər 2 saylı

musiqi məktəbinin tar sinfində oxumuşdur. Dayısı – Naxçıvan Muxtar Respublikasının tanınmış tarzəni, Respublikanın Əməkdar artisti Tağı Tağıyevin onun həyatında çox böyük rolu olmuşdur. İlk dəfə tarda çalmağı ona dayısı öyrətmiş, musiqi məktəbində isə ilk tar müəllimi bəstəkarın bu gün də böyük minnətdarlıq hissilə xatırladığı Əlislam Aslanoğlu olmuşdur. Vasif Allahverdiyev bu illər ərzində bir çox müsabiqə və festivallarda iştirak etmiş və laureat adını almışdır.

Bəstəkarın uşaqlıqdan musiqi yazmaq qabilliyyəti olduğu üçün müxtəlif alətlər üçün bir sıra kiçik pyeslər yazmış, məhz maestro Niyazinin xeyir-duası ilə bu çətin, şərəfli yola qədəm qoymuşdur. 1979-cu ildə Asəf Zeynallı adına orta ixtisas musiqi texnikumuna (indiki Musiqi Kolleci) tar ixtisası üzrə daxil olmuşdur. Vasif Allahverdiyevin tar sinfində dərs alması onu Azərbaycan xalq musiqisi və şifahi ənənəli peşəkar musiqi olan muğamlarla maraqlanması və dərindən öyrənməsinə səbəb olur. Texnikumda təhsil illərində Vasif Allahverdiyev fakültativ olaraq Vasif Adıgözəlovun sinfində bəstəkarlıqla da məşğul olmuşdur. 1983-cü ildə musiqi texnikumunu fərqlənmə diplomu ilə bitirmiş və həmin ildə Azərbaycan Dövlət Konservatoriyasına (indiki Bakı Musiqi Akademiyası) tar ixtisası üzrə qəbul olmuşdur. 1984-86-cı illərdə hərbi xidmətdə olmuş, qayıtdıqdan sonra Konservatoriyada təhsilini davam etdirmiş, 2 il sonra, yəni 1988-ci ildə bəstəkarlıq fakültəsinə dəyişdirilərək Hacıbəylilər nəslinin layiqli

nümayəndələrindən biri İsmayıl Hacıbəyovun sinfində oxumuşdur.

Bəstəkarlıq sənətinin sirlərini dərindən öyrənən Vasif, eyni zamanda dünya musiqi korifeylərinin klassik və müasir səpkili əsərlərini mənimsəyərək özünün fərdi yaradıcılıq üslubunu müəyyən etmişdir. Tar ifaçılığının incəliklərini isə Afət Novruzovdan öyrənmişdir.

Vasif Allahverdiyev hələ tələbəlik illərindən istedad və bacarığını nümayiş etdirmiş, Azərbaycanda keçirilən elmi konfrans və konsertlərdə çıxışları ilə diqqəti cəlb etmiş, Gəncə şəhərində keçirilən III Respublika müsabiqəsinin (1981) laureatı olmuş, eləcə də Kiprdə keçirilən Beynəlxalq simpoziumda (2001) müəllif konsertləri ilə çıxış etmiş, diplomlarla təltif olunmuşdur. Həmçinin təhsil illərində bir sıra əsələri Aərbaycan Televiziya və Radiosunun Qızıl fondunda lentə yazılmışdır.

1992-ci ildə Konservatoriyanı bəstəkarlıq ixtisası üzrə, 1994-cü ildə isə tar ixtisası üzrə bitirmişdir. Qeyd olunmalıdır ki, Vasif Allahverdiyev Azərbaycan bəstəkarları içərisində ilkin olaraq tar ixtisası üzrə də ali təhsilini başa çatdırmışdır. Konservatoriyanı bitirdikdən sonra dərin biliklərə malik bir gənc mütəxəssis kimi təyinatla Naxçıvan şəhərinə göndərilmiş, orada musiqi texnikumunun nəzəriyyə şöbəsinin müdiri və eyni zamanda Naxçıvan Bəstəkarlar Təşkilatının

məsul katibi vəzifələrində çalışmışdır. 1994-cü ildən Azərbaycan Bəstəkarlar İttifaqının üzvüdür.

Naxçıvanda işləyərkən1992-ci ildə xalqımızın ümummilli lideri Heydər Əliyevlə Naxçıvan şəhərində şəxsən görüşmüş və bu dahi şəxsiyyətin xeyir-duası ilə ona həsr olunmuş "Heydər Əliyev – Omür yolu" simfonik poemasını yazmışdır. Bu əsər bir neçə dəfə konsert salonlarında səslənmiş, sonralar yazıçı-publisist Nazim Əkbərov tərəfindən musiqiyə uyğun ssenari yazılaraq film yaradılmış və film versiyası ilə DVD şəkilində buraxılaraq Heydər Əliyev Fonduna, Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinə, o cümlədən Azərbaycanın bir çox dünya ölkələrində fəaliyyət göstərən səfirliklərinə təqdim olunmuşdur.

Bəstəkarın bütün bu illər ərzində yazdığı əsərləri bir çox konsert salonlarında səslənmiş və səslənməkdədir. Belə ki, 2005-ci ildə M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında səs və kamera orkestri üçün işləmiş olduğu bəstəkar və xalq mahnılarından ibarət konserti keçirilmişdir (Solist Gülüstan Əliyeva olmuşdur). 2006-cı ildə Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında, 2007-ci ildə yenə də orada qardaşı ilə birgə səs və kamera orkestri üçün işləmiş olduqları bəstəkar mahnılarından ibarət konsertləri baş tutmuşdur (Solist İlahə Fəda olmuşdur). 2009-cu ildə Qara Qarayev adına Azərbaycan Döv-

lət Kamera orkestrinin ifasında "Simli orkestr üçün musiqi" əsəri səslənmişdir (dirijor: Xalq atisti Teymur Göyçayev).

2010-cu il dekabrın 20-də Naxçıvanda Heydər Əliyev adına sarayda Xalq artıstı Teymur Çöyçayevin dirijorluğu ilə Q.Qarayev adına Azərbaycan Dövlət Kamera Orkeştri və xalq çalğı alətlərinin iştirakı ilə (solistlər Nəzakət Teymurova, Gülüstan Əliyeva, İlahə Fəda və Türkan Allahverdiyeva) konsert proqramı ilə çıxış etmiş, 2013-cü ilin avqust ayında Qəbələdə türk-dilli ölkələrin Prezidentlərinin görüşündən sonra təşkil olunmuş konsert proqramında kamera orkestri üçün işləmiş olduğu Ü.Hacıbəylinin "Koroğlu" operasına üverturası səslənmiş, 2014-cü il iyunun 16-da, eləcə də 2016-cı və 2017-ci illərdə Azərbaycan Dövlət Akademik Filarmoniyasında Teymur Çöyçayevin dirijorluğu ilə Dövlət Kamera Orkeştrinin ifasında mahnı və romans-lardan ibarət əsərləri ifa olunmuşdur.

Bəstəkarın qardaşı Ceyhun Allahverdiyevlə birgə tez-tez müəllif gecələri də keçirilmişdir. Belə ki, 1999-cu ildə Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin təşəbbüsü ilə Kamera və Orqan Musiqisi zalında müəllif gecəsi təşkil olunmuşdur. Gecədə Xalq artisti, görkəmli dirijor Rauf Abdullayevin idarəsi ilə Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin ifasında "Bir millət, iki dövlət" devizi altında "Atatürk" simfoniyası, Ceyhun Allahverdiyevin isə "Azərbaycan" simfoniyası səslənmisdir.

Eləcə də, 2018-ci il martin 30-da M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında bəstəkarın yaradıcılıq gecəsi keçirilmişdir. Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi, Azərbaycan Dövlət Akademik Filarmoniyası və "Mədəniyyət" kanalının təşkilatçılığı ilə reallaşan tədbirdə Xəzər Universitetinin təsisçisi, professor Hamlet İsaxanlı çıxış edərək Azərbaycan bəstəkarlıq məktəbi və onun görkəmli nümayəndəsi olan Vasif Allahverdiyevin zəngin yaradıcılıq fəaliyyətindən danışmışdır.

Bəstəkarın musiqisi təkcə Azərbaycanda deyil, Respublikamızın hüdudlarından kənarda da layiqincə təmsil olunur. O, Türkiyə, Kipr, İran, Rusiya, Fransa, Almaniya, İtaliya, ABŞ və digər ölkələrdə qastrol səfərlərində olmuş, öz əsərləri ilə Azərbaycan musiqisini layiqincə təmsil etmişdir.

2011-ci il fevralın l7-də Parisdə və həmin ilin sentyabr ayında Berlində, dekabr ayında isə Romada Azərbaycan Respublikasıınn müstəqillyinin 20-ci ildönümü ilə əlaqədar, Heydər Əliyev fondunun təşkil etdiyi konsert proqramında Vasif Allahverdiyevin kamera orkestri üçün işləmiş olduğu Ü.Hacıbəylinin "Koroğlu" operasına üverturası uğurla səslənmişdir. O, bu əsərdə milli alətlərimiz olan tar, balaban, tütək, zurnadan məharətlə istifadə etmiş və özü də tarzən kimi orkestrin tərkibində çıxış etmişdir (dirijor: T.Göyçayev).

Bəstəkarın əsərləri tez-tez Beynəlxalq səviyyəli tədbirlərdə, Azərbaycan Bəstəkarlar İttifaqının qurultay və plenumlarında da eşidilir.

2006-cı ildə Bəstəkarlar İttifaqının keçirdiyi plenumda V.Allahverdiyevin xalq çalğı alətləri orkestri üçün yazmış olduğu "Cəngi sədası" adlı əsəri, 2007-ci ildə Bəstəkarlar İttifaqının keçirdiyi qurultayda simfonik və kamera orkestri üçün yazılan əsərləri Azərbaycan Dövlət Filarmoniyasında səslənmişdir.

"Cəngi sədası" əsəri 2009 və 2014-cu illərdə Azərbaycan Bəstəkarlar İttifaqının 75 və 80 illik yubileyləri ilə əlaqədar keçirilən beynəlxalq festivallarda böyük uğurla səslənmişdir. Müəllimi İsmayıl Hacıbəyov hələ sağlığında "...sən bu əsərlə yeni bir cığır açdın" deyərək əsəri yüksək qiymətləndirmiş, öz xeyir-duasını vermişdir.

Vasif Allahverdiyev 1996-cı ildən Bakı Musiqi Akademiyasının "Dirijorluq" kafedrasında müəllim kimi fəaliyyətə başlamışdır. Hazırda Azərbaycan Milli Konservatoriyasının professoru olan Vasif Allahverdiyev gənc, istedadlı musiqiçilərin yetişdirilməsində yaxından iştirak edir.

Qeyd edək ki, bu ailənin bütün üzvləri istedad və bacarıqları ilə Azərbaycan musiqi mədəniyyətində öz sözlərini çoxşaxəli yaradıcılıqları ilə musiqi ictimaiyyətinə çatdırmaq əzmindədirlər. Qeyd etdiyimiz kimi dayısı – Naxçıvan Muxtar Respublikasının tanınmış tarzəni, Respublikanın Əməkdar artisti Tağı Tağıyevi;

qardaşı – Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi, bəstəkar, pianoçu, professor Ceyhun Allahverdiyev bu sənətdə öz sözlərini deməyə qadir olan sənətkarlardandır. Qızı Türkan Allahverdiyeva isə istedadlı pianoçu kimi fəaliyyət göstərir. Dünyaya göz açdığı ilk gündən musiqi mühitində boya-başa çatan bu qız uşaqlıqdan musiqinin sehrli aləminə baş vurmuş, onun dünyagörüşü musiqi mühitində formalaşmağa başlamışdır. 2010-cu il noyabrın 27-də M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında Q.Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestri və Xalq çalğı alətlırinin iştirakı ilə (dirijor Xalq artisti Teymur Göyçayev olmuşdur) Vasif Allahverdiyev, qardaşı Ceyhun Allahverdiyev və qızı pianoçu Türkan Allahverdiyevanın "Musiqi formatında ailəvi şəkillər" devizi altında keçirilən müəllif gecəsi bunu bir daha sübut etmiş oldu.

Vasif Allahverdiyevin yaradıcılığı dövlətimiz tərəfindən də yüksək qiymtləndirilmiş, 2010-cu ildə o, Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi, 2019-cu ildə isə Xalq artisti fəxri adına layiq görülmüşdür.

Biz inanırıq ki, Allahverdiyevlər ailəsi yaradıcılıq həvəsi ilə hələ neçə-neçə gözəl əsərlər yaradacaq, Azərbaycan musiqisinin peşəkarlığını daha da artıracaqlar. Onlara bu yolda böyük uğurlar arzulayırıq.

## “Heydər Əliyev – Ömür yolu” simfonik poeması

Tarixi-qəhrəmanlıq mövzusuna həm Qərbi Avropa bəstəkarları, həm də Azərbaycan bəstəkarları dəfələrlə müraciət etmişdir. Bu cəhət təbiidir ki, tarixin müəyyən dövrlərində yaşamış qəhrəmanların həyat tərzindən, tarixdə oynadığı rolundan asılı olmuşdur. Bu qəhrəmanların hər biri tarixdə, həm də yaddaşlarda müxtəlif cür obrazlaşmış, həm yazılı mənbə əsasında, həm də şifahi-ənənəvi yolla nəsildən-nəslə ötürülmüşdür. Belə tarixi şəxsiyyətlərdən olan Heydər Əliyev haqqında da bir çox əsərlər yaranmış və yaradılmaqdadır.

Ümumilikdə, Azərbaycanda müasir dövrümüzdə Heydər Əliyev şəxsiyyətinin, Heydər Əliyev simasının meydana gəlməsi, onun şəxsiyyət olaraq xalqa hər zaman dayaq olması, onu xalqımızın gözündə əbədiyaşar, ölməz bir simaya – qəhrəmana çevirmişdir. Azərbaycan xalqının dövlətçiliyinə qızıl hərflərlə yazılmış bu fenomenin adı hələ onun sağlığında bəstəkar Vasif Allahverdiyevi Heydər Əliyev simasında “Ömür yolu” mövzusuna müraciət etməyə sövq etmiş,

bəstəkar belə bir simfonik poemanı yazıb, ərsəyə gətirə bilmişdir. Onu da xüsusi vurğulamaq istərdik ki, bu poema Azərbaycan musiqi mədəniyyətində Heydər Əliyev fenomeninə həsr olunan ilk iri həcmli əsərdir.

Dünya musiqi mədəniyyəti tarixində birhissəli simfonik janrlar çox məhşur olmuş, böyük rol oynamışdır. Proqramlı simfonik janrların yaranması müxtəlif nəsil bəstəkarlarının yaradıcılığında öz əksini tapmışdır. Simfonik poema özündə müxtəlif prinsipləri - silsiləviliklə variasiyalılığı, sonatalılıqla monotematizmi qovuşdurur. Bu janr sərbəst inkişafa malik olan bir hissəli orkestr əsəri kimi müəyyən edilir.

XX əsrin sonu Azərbaycan musiqi mədəniyyətinin inkişafında mühüm bir mərhələni təşkil edir. Bu dövrdə baş verən ictimai-siyasi hadisələr, dəyişikliklər incəsənətin digər sahələrində olduğu kimi musiqidə də öz əksini tapmış, həmin illərdə yaşayıb-yaradan bəstəkarların üzərinə böyük məsuliyyət düşmüşdür. 1990-cı illərdə birhissəli simfonik janrlar öz əhəmiyyətli mövqelərini saxlamışdır. Bu illərdə yazılmış maraqlı əsərlərdən biri də Vasif Allahverdiyevin Heydər Əliyevə həsr olunmuş "Ömür yolu" simfonik poemasıdır.

Bəstəkar əsərin qəhrəmanı ümummilli lider Heydər Əliyevlə 1992-ci ildə Naxçıvanda şəxsən görüşmüşdür. Bəstəkarın yazdığı "Ömür yolu" simfonik poemasının mövzusu və məzmunu Heydər Əliyevlə görüşündən alınan təəsüratdan, ulu öndərin şəxsiyyəti, həyat yolu ilə tanışlıqdan sonra formalaşmışdır.

Vasif Allahverdiyev mürəkkəb ömür yolu fonunda Heydər Əliyevin şəxsi musiqi portretini yaratmışdır. Bəstəkar özü bu haqda deyir: “Mən Heydər Əliyevin obrazını bir rəssam kimi, lakin musiqi vasitəsilə verməyə çalışdım, yəqin ki, buna nail olmuşam”.

Bəstəkarın simfonik poema janrına müraciət etməsi təsadüfi deyil. Belə ki, məhz simfonik poemanın quruluşu bir şəxsiyyətin obrazının hərtərəfli açılmasına imkan yaradır. Vasif Allahverdiyevin “Ömür yolu” simfonik poemasında Heydər Əliyev şəxsiyyəti hərtərəfli şəkildə açıqlanmışdır. Bu əsərdə Heydər Əliyevin şəxsi fikirləri, həyatının ən mühüm dövrləri, lirik hissləri verilmiş, onun həyata, dünənə, bu günə, sabaha olan baxışları əks etdirilmişdir. Birhissəli simfonik janr çərçivəsində dahi şəxsiyyətin həyatını, daxili dünyasını, həyata baxışını, onun fikir və düşüncələrini, fəaliyyətini və s. əks etdirmək bəstəkardan istedad, intuisiya, böyük yaradıcı qüvvə tələb edir. Burada xüsusilə XX əsrin 90-cı illərində Azərbaycanda hökm sürən qarışıq şəraitdə Heydər Əliyevin siyasi baxışları, fəaliyyəti, siyasəti daha qabarıq ifadə olunmuşdur.

Əsərdə Heydər Əliyevin həyatının 3 dövrü – Azərbaycanda hakimiyyətdə olduğu ilk dövr, Moskvadakı fəaliyyət dövrü və Azərbaycana qayıdış, yəni dönüşü xüsusilə vurğulanmışdır.

“Ömür yolu” simfonik poemasında bəstəkar ulu öndərin obrazını musiqi vasitəsilə müxtəlif tərəflərdən açmışdır. Əsərdə Heydər Əliyev bir ictimai

xadim, dərin lirik hisslərə malik bir insan, Vətənini, xalqını dərin məhəbbətlə sevən, xalqın azadlığı və işıqlı gələcəyi naminə daima düşünən şəxsiyyət kimi təsvir edilmişdir. Əsərdə faciəvi-dramatik, lirik-fəlsəfi, qəhrəmanlıq, təntənəli mövzular dinamik bədii konsepsiyada inkişaf edir.

Əsər "Sonata alleqro" formasında yazılmışdır. Proqramlıdır, əsərin məzmunu, ideyası ilə bağlı olaraq sonata forması burada müəyyən dəyişikliyə uğramışdır. Həmçinin bu da qeyd olunmalıdır ki, sonata formasının hissələrində ənənədən uzaqlaşma, sərbəstlik hiss olunur.

Əsərin daha bir maraqlı cəhəti qəhrəmanın dövrün tələbindən irəli gələn qətiyyətinin ön plana çıxarılmasıdır.

Bəstəkar əsərdə qəhrəmanın obrazını daha dərindən açmaq məqsədilə muğamlardan, məqam intonasiyalarından geniş istifadə etmişdir. Bununla da əsərin musiqi dilini daha da zənginləşdirərək, onun milli köklərdən qidalanmasına səbəb olmuşdur. Muğam irsinə dərindən bələd olan bəstəkar bunu xüsusi incəliklə əsərdə istifadə etmişdir. Məqam intonasiyalarından istifadə əsərin daha dolğun və zəngin səslənişinə şərait yaradır. Muğam intonasiyaları, elementləri əsərin musiqi dilini, səslənmə effektini gücləndirən əsas amillərdəndir.

Poemanın musiqi məzmununun formalaşmasında girişin əhəmiyyəti böyükdür. Əsərin girişində Hümayun məqamının intonasiyaları aydın duyulur. Artıq ilk xanələrdən bəstəkarın özünəməxsus yazı texnikası, fərdi dəst-xətti nəzərə çarpır. Poema əsərdə böyük əhəmiyyət kəsb edən qətiyyətli, kəskin akkordlarla başlayır.

Ulu öndərin əsl vətənpərvər siması, onun azərbaycanlı olması, bununla fəxr etməsi simfonik poemanın əsas mövzusunda geniş şəkildə öz əksini tapır. Əsas mövzu Çahargah muğamının intonasiyaları üzərində yazılmış musiqi mövzusuna malikdir. Köməkçi mövzu lirik hisslərlə bağlıdır. Məhz bu səbəbdən bəstəkar Zərifə Əliyevanın obrazını Segah muğamının intonasiyaları vasitəsilə göstərməyə çalışmışdır.

İşlənmədə bəstəkar Müslüm Maqomayevin "Azərbaycan" mahnısından sitat kimi istifadə etmişdir. Bəstəkar Ulu öndərin Azərbaycana olan hədsiz sevgisini bu mahnının istifadəsi ilə əks etdirə bilmiş, daha da rövnəqləndirməyə nail olmuşdur

Reprizdə bəstəkar "do" Şur məqamına əsaslanmışdır. Bu bölmədə Çahargah, Əbu-əta məqamlarına yönəlmələri də qeyd etmək olar.

Vasiv Allahverdiyev əsərdə reprizanı çox geniş və monumental şəkildə vermişdir. Yallı üərində qurulmuş repriza qəhrəmanlıq, cəsurluq, həyat eşqi, mü-

barizlik, qalibiyyət və s. xarakterik cəhətləri özündə birləşdirir. Bəstəkarın seçdiyi yallı xüsusi əhəmiyyətə malik olub, bir növ özündə qalibiyyəti ehtiva edir. Bəstəkar bu yallının fonunda Ulu Öndəri, onun simasında qalibiyyəti tərənnüm edə bilmişdir.

Vasif Allahverdiyevin yallı rəqsindən bu cür istifadə etməsi bir növ bizə Üzeyir Hacıbəylinin "Koroğlu" operasında xalq şənliyini və qalibiyyətini tərənnüm edən yallı rəqsini xatırladır. Lakin, burada yallının istifadəsi daha kəskin səslənən alətlərlə müşayiət edilir. Bu cəhət simfonik poemada qoyulan ideya məzmunu ilə birbaşa əlaqəli şəkildə tərənnüm etdirilir. Ulu Öndərin mürəkkəb, keçməkeşli, qalibiyyətli həyat yolunu tərənnüm edir.

Xalq qaynaqlarından, daha dəqiq desək, muğamlarımızdan qidalanan musiqi əsəri dinləyicilərlə ünsiyyət əlaqəsini daha da genişləndirir. Həmçinin bu cəhət əsərin daha yaxşı yadda qalmasına səbəb olur.

Kodada yenidən Ulu Öndərin ölməz siması canlanır. Burada əsərin əvvəllində verilən akkord öz estetik prinsipinə görə yeni məna əldə edir. Koda bütünlüklə əsərin kulminasiyasını və Ulu Öndərin qalibiyyətini təsvir edir. Burada verilən kulminasiya səslənməsi yüksək registrli alətlərdə özünü göstərir. Trubalarda melodik xəttin davam etməsi, eyni zamanda alətlərdə yallının istifadəsi, tamburo və litavrala-

rın buraya daxil olması kodanın daha əzəmətli, daha təsirli səslənməsinə şərait yaradır.

Vasif Allahverdiyevin yaradıcılığında melodiyanın istifadəsi, motiv və ibarə ardıcıllaşmaları simfonik dil vasitəsilə daha aydın, daha səlis şəkildə dinləyiciyə çatdırılır. Bu xüsusda simfonik poema əsasında çəkilmiş filmdə də obrazlaşmanın aydın estetik tərəfləri açıqlanır. Qeyd etdiyimiz kimi, yazıçı-publisist Nazim Əkbərov tərəfindən musiqiyə uyğun ssenari yazılaraq film yaradılmışdır. Buradakı estetik prinsiplər intonasiya səslənmələri vasitəsilə Heydər Əliyev simasının və xalqın obrazının açılışında özünü əks etdirir.

Beləliklə, deyilənlərdən belə nəticəyə gəlmək olar ki, xalqımızın Ümummilli lideri Heydər Əliyevə həsr edilmiş bu simfonik poema digər iri və kiçik həcmli musiqi əsərlərinin yaranması üçün tutarlı bir incəsənət əsəridir.

# Bəstəkarın pedaqoji fəaliyyəti

Qeyd etdiyimiz kimi, Azərbaycan Milli Konservatoriyasının "Dirijorluq" kafedrasında professor vəzifəsində çalışan Vasif Allahverdiyev "Orkestrləşdirmə", "Alətşünaslıq", "Partitura oxunuşu" kimi fənlərdən dərs verir. Bəstəkar həm özünə, həm də tələbələrinə qarşı olduqca məsuliyyətli, tələbkar bir müəllim kimi yanaşması ilə seçilən, eyni zamanda, ən mürəkkəb və çətin mövzuları maraqlı və anlaşıqlı şəkildə təqdim etməklə gənclərin oxuyub-öyrənmək həvəsini artırmağı bacaran bir müəllim kimi tanınır. O, həmçinin tədris prosesinin zəruri materiallarlarla zənginləşməsi üçün bir çox tədris proqramları, metodik və dərs vəsaitləri yazmışdır. Bəstəkarın "Fortepiano üçün seçilmiş əsərlərin ifaçılıq xüsusiyyətləri" və "Qarabağ balladası" adlı dərs vəsaitlərindən, Azərbaycan xalq çalğı alətləri orkestri üçün yazılmış "Cəngi sədası" adlı metodik vəsaitdən, eləcə də çoxsaylı tədris proqramlarından bu gün Azərbaycan Milli Konservatoriyasının müəllim və tələbələri faydalanırlar.

Vasif Allahverdiyev pedaqoji fəaliyyəti dövründə həm peşəkarlığı, həm yüksək insani keyfiyyətləri, musiqiçi kadrların yetişdirilməsi işinə visdanla xidmət

göstərməsi sayəsində Konservatoryanın müəllim və tələbə heyətinin dərin hörmətini qazanmışdır.

Vasif Allahverdiyevin yaradıcılığı bir bəstəkar kimi musiqişünasların və eləcə də tələbələrin hər zaman diqqət mərkəzindədir. Belə ki, onun yaradıcılığı haqqında monoqrafiya, dərs vəsaitləri, buraxılış və dissertasiya mövzuları, metodik işlər və məqalələr yazılmışdır.

Qeyd edək ki, Azərbaycan Milli Konservatoriyasının magistri Mahmudova Ülviyyə İxtiyar qızı "Vasif Allahverdiyevin "Ömür yolu" simfonik poemasında musiqinin estetik prinsipləri"(Bakı, 2014) adlı magistr dissertasiyası; Dadaşova Gülnar Sabir qızı "Vasif Allahverdiyevin f-no əsərləri" (Bakı, 2015) mövzusunda və Bakı Musiqi Akademiyasının "Tarix-nəzəriyyə" fakültəsinin IV kurs tələbəsi Rəhimzadə Səbinə "Vasif Allahverdiyevin "Atatürk" simfoniyası" mövzusunda buraxılış işlərini (Bakı, 2014) müvəffəqiyyətlə müdafiə etmişlər.

## Son söz əvəzi

Beləliklə, sonda onu deyə bilərik ki, bütün bunlar istedadlı bəstəkarın ömür yolunun mərhələləridir. Biz Vasif Allahverdiyev yaradıcılığının zənginliyini, onun sənət dünyasının genişliyini, milli musiqi incəsənətinin inkişafı naminə gördüyü işlərin əhəmiyyətini göstərmək istədik. Vasif Allahverdiyev gümrah, nikbin, həyat eşqi ilə alışıb-yanan, böyük yaradıcılıq potensialına malik sənətkardır. Bu gün yaradıcılığının kamillik dövrünü yaşayan bəstəkar yüksək peşəkarlıq prinsiplərinə sadiq qalaraq milli musiqi mədəniyyətimizin tərəqqisi naminə yorulmadan çalışır.

Xalq artisti, professor Vasif Allahverdiyevin yaradıcılığı daima musiqi ictimaiyyətinin marağına səbəb olur, geniş dinləyici kütləsinin rəğbətini qazanır. Onun əsərləri özünəməxsus fərdi musiqi dili, peşəkar yazı üslubu ilə fərqlənir. Azərbaycan xalq musiqisini dərindən bilən, müasir bəstəkarlıq texnikasına yaxından bələd olan, daima yeni ifadə üsulları axtaran bəstəkarın hər bir əsəri maraqlı yaradıcılıq ideyalarının bədii təcəssümüdür.

Zəmanəmizin ictimai-siyasi problemlərinə həssaslıqla yanaşan, həyatın müxtəlif təzadlarını fəlsəfi nöqteyi-nəzərdən dərk etməyə çalışan bəstəkarın yaradıcılığının əsas qayəsini yüksək bəşəri ideyaların bədii inikası təşkil edir. Onun əsərlərində doğma Vətənin tərənnümü, böyük müəllimlərinə məhəbbət, xalqın azadlıq mübarizəsi, qəhrəman-şəhidlərin xatirəsi kimi mövzular bədii əksini tapmışdır. Bəstəkar əsl peşəkarlıq zirvəsinə çatmağı qarşısına məqsəd qoymuş, çalışqanlığı və tələbkarlığı sayəsində bu yüksək amala nail olmuşdur. Artıq o, milli musiqi mədəniyyətimizin önəmli səhifələrini təşkil edən bir sıra maraqlı əsərlərə imza atmış bir bəstəkar kimi tanınır.

Vasif Allahverdiyev yaradıcılığına maraq gün-gündən artır. Onun əsərləri ali və orta-ixtisas musiqi məktəblərinin tədris repertuarına daxil edilir.

Vasif müəllimə çoxcəhətli yaradıcılıq yolunda uğurlar və yeni-yeni nailiyyətlər diləyirik.

## Vasif Allahverdiyevin əsərlərinin siyahısı

1. Piano üçün "Gənclik süitasi" (5 hissəli). Qızı Türkan Allahverdiyevaya həsr olunub

2. Piano üçün "8 prelüd" - Ceyhun Allahverdiyevə həsr olunub

3. Piano üçün "Variasiyalar" ("Gül açdı" xalq mahnısının mövzusu əsasında)

4. Piano üçün "Sonatina" (3 hissəli) – müəllimi İsmayıl Hacıbəyova həsr olunub

5. Simli kvartet (3 hissəli)

6. "Atatürk" simfoniyası (3 hissəli)

7. Violino və piano üçün "Pyes"

8. "Heydər Əliyev- ömür yolu" simfonik poeması

9. Solo tar ifası üçün "Qarabağ balladası" (İsmayıl Hacıbəyova həsr olunub)

10. Xalq çalğı alətləri orkestri üçün "Cəngi sədası"

11. Xanəndə və kamera orkestri üçün xalq mahnılarının işlənməsi

12. Kamera orkestri üçün "Türkü"

13. Səs və kamera orkesti üçün "Zəminxarə"

14. Simli orkestr üçün musiqi - Teymur Göyçayevə həsr olunub

15. Taxta nəfəsli kvartet və zərb alətləri üçün "Muğamsayağı" (2 hissəli) - Ü.Hacıbəyliyə həsr olunub

16. Tarlardan ibarət ansambl üçün işləmələr

17. Piano üçün "Silsilə" (4 hissəli) - Arif Məlikova həsr olunub

18. Səs və fortepiano üçün "Qəmli hekayə" (romans)

19. Kamança və kamera orkestri üçün "Hara gedirsən"

20. Mahnılar

21. Kamança və kamera orkestri üçün "O yollar"

22. Səs və piano üçün "Pəncərəm üşüyür" (romans)

23. Səs və kamera orkestri üçün "Sənsizlik" elegiyası (H.Əliyevə həsr olunub)

24. A capella xoru üçün 2 xalq mahnısının işlənməsi - "Ay sallanıb gələn yar", "Ay qadası"

25. "Sarı gəlin" xalq mahnısının kamera orkestri üçün işlənməsi

26. Simfonik orkestr üçün "Rəqs"

27. Ü.Hacıbəylinin "Koroğlu" operasından üvertura (kamera orkestri üçün işlənmə)

28. Violino və piano üçün poema

29. Xalq çalğı alətləri orkestri və dörd səsli qarışıq xor üçün "Azərbaycan torpağıyam" odası

30. Səs və kamera orkestri üçün "O yollar"

31. Səs və kamera orkestri üçün "Hara gedirsən"

32. Səs və kamera orkestri üçün "Gözləyəcəm səni"

33. Səs və kamera orkestri üçün "Bəlkə görüşdük"

34. Səs və kamera orkestri üçün "Azərbaycanım"

35. Suenos (Xəyallar) – kompozisiya

36. "Aşıqsayağı" - böyük simfonik orkestr üçün (Dahi Azərbaycan bəstəkarı Ü.Hacıbəylinin 135 illik yubileyinə həsr olunub)

37. "Sevgi valsı" – böyük simfonik orkestr üçün (həyat yoldaşı Reyhan xanıma həsr olunub)

38. Səs və xalq çalğı alətləri orkestri üçün "Azərbaycanım"

39. "Vətən torpağı" odası – solist, dörd səsli qarışıq xor və böyük simfonik orkestr üçün

40. "Sevgi valsı" - iki piano üçün işləyəni Ceyhun Allahverdiyev

# Vasif Allahverdiyevin yazdığı məqalə, proqram, metodik tövsiyə və dərs vəsaitləri:

1. "F.Əmirovun fortepiano üçün yazdığı 12 miniatür məcmüəsində milli üslub keyfiyyətləri". Məqalə. "Mədəni-Maarif" jurnalı. Bakı, 2011
2. Çox sayda tədris proqramları.
3. "Cəngi sədası" - metodik vəsait. Bakı, 2011
4. "Qarabağ balladası" - dərs vəsaiti. Bakı, 2011
5. "Fortepiano üçün seçilmiş əsərlərin ifaçılıq xüsusiyyətləri" - dərs vəsaiti. Bakı, 2015

## Vasif Allahverdiyev haqqında yazılan elmi-metodik işlər və məqalələrin siyahısı


1. Qulamova Jalə. Sözlü nəğməli Naxçıvan. "Sənətdə atılan qoşa addım". Monoqrafiya. "Sabah" nəşriyyatı, Bakı, 2000, səh.122-127

2. Novruzov Afət. Vasif Allahverdiyevin solo tar üçün "Qarabağ haqqında ballada"sı. Məqalə. "Musiqi dünyası" jurnalı 3-4/33 2007, səh.82-85

3. Fortepianoda çalmaq üçün vəsait. Dərslik.V-VI siniflər. Bakı,"Çıraq", 2009

4. Raufqızı Aytən. Azərbaycan bəstəkalarının birhissəli əsərlərinin janr və üslub xüsusiyyətləri. Monoqrafiya. Bakı, "Elm və təhsil", 2010

5. "Мустафаева С.И. Исполнительский анализ «Детской сюиты» Васифа Аллахвердиева". Методическое пособие. Bakı, "Bizim kitab", 2011

6. Novruzov Afət. "Vasif Allahverdiyevin solo tar ifası üçün "Qarabağ balladası" əsəri. Tarın ifadə

imkanlarından istifadə məsələləri. Məqalə. "Konservatoriya" №3 (13) Bakı, 2011, səh.32-40

7. Raufqızı Aytən. Vasif Allahverdiyevin xor və simfonik orkestr üçün "Yüksək-yüksək təpələrə" türküsü. Məqalə. Ankara, Kültür üvreni, 2012, səh.56-61

8. İsmayılova Güllü. "Azərbaycan mədəniyyəti və incəsənəti Heydər Əliyevin Azərbaycançılıq ideologiyasının əsası kimi" elmi-nəzəri konfransın materialları. Vasif Alahverdiyevin "Heydər Əliyev – ömür yolu" simfonuk poeması. Məruzə, Bakı, 2013, səh.214-218

9. Fortepianoda çalmaq üçün vəsait. Dərslik. X sinif, Bakı, Çıraq, 2013, səh.153-169

10. Yavər Neymətli. Azərbaycan bəstəkarlarının yaradıcılığında kvartet janrının inkişafı və ifaçılıq problemləri. Vasif Allahverdiyevin 1 saylı kvarteti. Avtoreferat, Bakı, 2013, səh.23-28

11. Novruzov Afət. Tar ifaçılıq sənətinin inkişafında bəstəkar əsərlərinin rolu. Vasif Allahverdiyevin "Qarabağ balladası". Dərs vəsaiti, Bakı, 2014, səh.89-99

12. Qulamova Jalə. "Sənət zirvəsinə aparan yollar". Məqalə. "Mədəniyyət" qəzeti, 1 dekabr, 2010, 84

13. Qulamova Jalə. "Bəstəkar ömrünün mərhələləri". Məqalə. "Mədəniyyət" qəzeti, 6 aprel, 2018, №27

12. Rəhimzadə Səbinə.Vasif Allahverdiyevin “Atatürk” simfoniyası. BMA-nın “Tarix nəzəriyyə” fakültəsinin IV kurs tələbəsi - Buraxılış işi, Bakı, 2014

14. Mahmudova Ülviyyə. Azərbaycan Milli Konservatoriyasının magistri. “Vasif Allahverdiyevin “Ömür yolu” simfonik poemasında musiqinin estetik prinsipləri”. Magistr dissertaiyası, Bakı, 2014

15. Dadaşova Gülnar. “Vasif Allahverdiyevin f-no əsərləri”. Azərbaycan Milli Konservatoriyasının “Tarix-nəzəriyyə” fakültəsinin IV kurs tələbəsi. Buraxılış işi, Bakı, 2015



(Soldan) Ceyhun Allahverdiyev, dayısı Əməkdar artist
Tağı Tağıyev və Vasif Allahverdiyev



Vasif Allahverdiyev və müəllimi, görkəmli bəstəkar
İsmayıl Hacıbəyov, Bakı, 2000-ci il



Vasif Allahverdiyev və müəllimi Afət Novruzov



Vasif Allahverdiyev və Xalq artisti,
dirijor Teymur Çöyçayev



Vasif Allahverdiyev və Xalq artisti,
dirijor Rauf Abdullayev



Vasif Allahverdiyev və Xalq artisti, bəstəkar Arif Məlikov
Azərbaycan Dövlət Akademik Filarmoniyasında keçirilən
müəllif konserti zamanı. Bakı, 2006-cı il



(Soldan) Vasif Allahverdiyev, ictimai-siyasi xadim
Rauf Denktaş, Ceyhun Allahverdiyev və Arif İşgüzar.
Kipr, 2001-ci il



Vasif Allahverdiyev və məşhur
Hollivud aktyoru Kevin Speysi.
Nyu-York, 2011-ci il



Vasif Allahverdiyev və Xalq artisti Samir Cəfərov
Azərbaycanın müstəqillik günü münasibətilə Fransada
keşirilən tədbirdə. Paris 2011-ci il



(Soldan) Vasif Allahverdiyev,
qardaşı Ceyhun Allahverdiyev və
qızı Türkan Allahverdiyeva



Vasif Allahverdiyev

**Jalə Qulamova**

# Vasif Allahverdiyev

Buraxılışa məsul:
**Ələddin Əsədzadə**

Nəşriyyat redaktoru:
**Səkinə Səmədova**

Texniki redaktor:
**Ellada Səfərəliyeva**

Çapa imzalanıb: 01.03.2023.
Kağız formatı 70x100 1/32;
Həcmi: 1,25 ç.v.
Tirajı: 200

Kitab "Renessans-A" Nəşriyyat Evində
səhifələnmiş və hazır diapozitivlərdən ofset
üsulu ilə çap olunmuşdur.